**Dahi söz ustadlarından biri olan İmadəddin Nəsimi həm şair, həm mütəfəkkir, həm də əqidəsinə görə canından keçən fədai idi. 1369-cu ildə Şamaxıda dünyaya gələn şair ilk təhsilini də burada almış, dövrünün elmlərini dərindən mənimsəmişdi. Riyaziyyat, məntiq, astronomiya və dinlərin tarixi kimi sahələrə olan marağı onu yalnız şair yox, həm də fəlsəfi dünyagörüşə malik bir ziyalıya çevirmişdi. Elmi və poetik təfəkkürün sintezində yetişən bu istedadlı gənc ilk şeirlərini "Hüseyni" təxəllüsü ilə yazsa da, sonralar ömür yolunu dəyişəcək bir görüş onu öz ruhuna daha yaxın bir dünyaya aparacaqdı. Nəsiminin hürufilik təliminə qoşulması tale yolunu müəyyənləşdirən əsas dönüş nöqtəsi oldu. Fəzlullah Nəiminin ideyaları gənc şairin ruhunda inqilab yaratdı. İnsan üzündə və sözündə Tanrını axtaran bu düşüncə sistemi Nəsiminin poeziyasında ilahi və bəşəri olanı birləşdirən, zahiri qadağalar içərisində batini azadlıq axtaran yeni əsərlər yaratdı. Bu zaman o, artıq "Nəsimi" təxəllüsünü daşıyırdı və bu ad sanki onun poeziyasının nəfəsi, ruhunun səsi idi. Mütəxəssislər qeyd edirlər ki, şair "Nəsimi" təxəllüsünü müəllimi "Nəimi"nin adına həmahəng səsləndiyinə görə götürüb.**



## Söz ustadı Nəsimi:

# Sən bu nişanla bil məni, bil ki, nişanə sığmazam...

Nəsimi klassik Şərq ədəbiyyatının çərçivəsini genişləndirdi, Azərbaycan dilində fəlsəfi qəzəlin əsasını qoydu. Onun şeirlərində eşq, insan, kainat və Tanrı bütöv varlıq kimi təsvir edilir. Aşiqanə misraların içində tənqid gizlənir, təbiət təsvirlərinin arxasında cəmiyyətin mənəvi tənəzzülü boylanırdı. Bu cəsarət isə onu hakimiyyətin və ruhanilərin hədəfinə çevirdi. Amma Nəsimi bu yoldan dönmədi, o, sözün gücünə, düşüncənin azadlığına inandı.




Nəsimi yaradıcılığında müstəzad, mürəbbe, tərcibənd kimi nadir şeir formaları ilə Azərbaycan şeirinin poetik zənginliyini artırdı. Onun rübailəri və tuyuqları fəlsəfi dərinliyin nümunəsidir. Sözləri ilə insanı düşündürən, qapalı dövrlərin içində açıq fikirlə danışan Nəsimi poeziyanı həm də azadlıq platforması etdi. Şairin əsərləri hələ sağlığında geniş coğrafiyada - Yaxın Şərqdə, Suriyada, İraqda, Orta Asiyada və uyğurlar arasında böyük şöhrət qazandı. Sonrakı dövrlərdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif kimi böyük sənətkarlar bu poeziya məktəbinin davamçıları oldu.

XIV əsrin sonlarında İmadəddin Nəsimi hürufilik təlimi ilə tanış olduqdan sonra bu fəlsəfi cərəyanın ən güclü poetik təbliğatçısına çevrildi. Hürufiliyin əsas ideoloqu Fəzlullah Nəiminin təsiri altında formalaşan bu təlim kainatın və insanın mahiyyətində Tanrının varlığını görən panteist baxışa əsaslanırdı. Bu cür radikal və ruhaniləri hədəf alan düşüncə sistemi isə dövrün siyasi-ideoloji dairələri tərəfindən təhlükə kimi qəbul olunurdu. Əmir Teymur və onun varisləri dövründə hürufilərə qarşı amansız təqiblər başlandı. Elə bu səbəbdən Nəsimi də vətənindən didərgin düşərək İraq, Anadolu və Suriya torpaqlarında yaşamağa məcbur oldu.

Nəsiminin ideyaları Suriyada, xüsusilə Hələb şəhərində onun ətrafına geniş tərəfdar kütləsi topladı. Bu da hakim dairələrin qəzəbinə səbəb oldu. Məşhur tarixçi İbn əl-İmad Hənbəlinin yazdıqlarına görə, Nəsimi Hələbdə hürufilərin lideri kimi tanınırdı və onun "bidətləri" yayıldıqca sultan onun edamına qərar verdi. Nəsiminin ölümü də şeirləri kimi, ideyasına bağlılığın ən ali forması oldu.

İmadəddin Nəsimi öz ideyalarını klassik filosoflar kimi ayrıca traktatlarda sistemləşdirməyib. Bunun əsas səbəblərindən biri kimi həmin dövrün fəlsəfi mühitini göstərmək olar. İbn Ərəbi və Əziz Nəsimi kimi sufi mütəfəkkirlərin artıq mövcud olan geniş fəlsəfi irsindən sonra yeni traktat yazmaq bəlkə də zəruri hesab olunmurdu. Hürufiliyin nəzəri əsasları isə onun müəllimi Nəiminin əsərlərində artıq dolğun şəkildə işlənmişdi. Nəsimi bu hazır fəlsəfi platformanı şeir vasitəsilə xalqa çatdırmaq missiyasını öz üzərinə götürmüşdü. İmadəddin Nəsiminin zəngin lirikasının əks olunduğu divanlarının əlyazmaları bu gün də onun ədəbi irsinin öyrənilməsi baxımından qiymətli mənbələr sayılır. Bu baxımdan xüsusilə Ankaranın Milli Kitabxanasında qorunan iki əlyazma nümunəsi diqqət çəkir. 105 vərəqdən ibarət birinci əlyazmanın başlığı "Divani-Həzrət Seyyid-Nəsimi" olsa da, burada yer alan şeirlərin əksəriyyəti onun "Hüseyni" təxəllüsü ilə yazdığı erkən dövr poetik nümunələrdir. Bu isə Nəsiminin yaradıcılığında keçdiyi mərhələləri izləmək baxımından çox önəmlidir. 124 vərəqdən ibarət ikinci əlyazmada isə həm "Nəsimi", həm də "Hüseyni" təxəllüslü şeirlərin bir arada yer alması şairin müxtəlif dövrlərdə istifadə etdiyi təxəllüslərin qarşılaşdırılmasına, poetik dilinin və ideyalarının inkişaf dinamikasının araşdırılmasına şərait yaradır.

Azərbaycan ədəbiyyatının və mənəvi irsinin nəhəng siması olan İmadəddin Nəsimi əsrlər keçsə də, yalnız poeziyası ilə deyil, həm də ideyalarının, fikri mübarizəsinin dərinliyi ilə bu gün də dünya miqyasında anılır, araşdırılır və yad edilir. Onun poetik irsi təkcə Azərbaycan ədəbiyyatının deyil, ümumilikdə türk-islam sivilizasiyasının fəlsəfi-mədəni xəzinəsinin ayrılmaz hissəsinə çevrilib.

Dahi şairin 600 illik yubileyi 1973-cü ildə UNESCO-nun qərarı ilə dünya səviyyəsində qeyd edilib. Bu, Azərbaycan klassik ədəbiyyatının tanıdılması baxımından mühüm hadisə olmaqla yanaşı, həm də onun ideya və poetik nüfuzunun beynəlxalq elmi-ədəbi dairələr tərəfindən qəbulunun göstəricisi idi. Həmin il həm Bakıda, həm də Moskvada keçirilən yubiley tədbirlərinə dünyanın müxtəlif ölkələrindən alimlər və mədəniyyət xadimləri qatılmış, Nəsimi şəxsiyyəti və yaradıcılığı haqqında dəyərli müzakirələr aparılmışdır. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2019-cu il ölkədə "Nəsimi ili" elan edilib və bu çərçivədə dahi şairin 650 illik yubileyi qeyd olunub. Bir sıra yerli və beynəlxalq konfranslar, sərgilər, sənədli filmlər, nəşrlər və mədəni layihələr Nəsimi irsinin təbliği məqsədilə həyata keçirilib.

Nəsiminin xatirəsi həm də xalqın yaddaşında yaşayır. Bakı şəhərinin mərkəzi rayonlarından biri onun adını daşıyır. Paytaxt Bakının mərkəzində şairin heykəli ucalır, Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu da onun adını daşıyır.

İmadəddin Nəsiminin əlyazmaları bu gün dünyanın bir çox kitabxana və arxivlərində, xüsusilə qardaş Türkiyənin Ankara şəhərindəki Milli Kitabxana və əlyazma mərkəzlərində qorunur. Burada Nəsimi irsini əhatə edən 170-dək əlyazma mövcuddur. Ankara Milli Kitabxanasında saxlanılan ən qədim "Divan" nüsxəsi 1536-cı ildə köçürülüb və 81 vərəqdən ibarətdir. Bu nüsxədə şairin Azərbaycan dilində yazdığı 223 qəzəl, 54 rübai və tuyuq, 2 tərcibənd və 1 müstəzad yer alır. Daha geniş məzmuna malik olan digər bir əlyazma 137 vərəqdir, köçürülmə tarixi və katibi məlum olmasa da, bura 2 məsnəvi, 528 qəzəl, 226 rübai və 1 müstəzad daxil edilmişdir. Bu nüsxə məzmun zənginliyinə görə, Nəsimi irsinin poetik diapazonunu əks etdirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Üçüncü mühüm əlyazma isə 1603-cü ildə köçürülmüş, 256 vərəqlik bir "Divan"dır və Adnan Ötükən Xalq Kitabxanasının kolleksiyasına daxildir. Bu əlyazmalar təkcə poetik nümunələr deyil, həm də dil və üslub baxımından Nəsimi dövrünün mədəni-fəlsəfi kontekstini göstərən tarixi sənədlərdir.

Bu gün İmadəddin Nəsimi nəinki klassik poeziyanın banilərindən biri, həm də milli-mənəvi özünüdərkin simvoludur. Nəsimi irsi Azərbaycan ədəbiyyatının mühüm bir mərhələsi olmaqla yanaşı, həm də parlaq səhifəsidir. Şairin əsərləri illər keçsə də dillər əzbəridir:

"Kövnü məkandır ayətim, zati dürür bidayətim,
Sən bu nişanla bil məni, bil ki, nişanə sığmazam...."

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika .- 2025.- 28 may (№110).- S.22.